**2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar vətəndaş Ağabalayev Abid Balabəy oğlunun 26 dekabr 2009-cu il tarixli 111 saylı, vətəndaş Əliyev Hidayət və digərlərinin 26 dekabr 2009-cu il tarixli 120 saylı, vətəndaş İbrəhimov Şirzad və digərlərinin 26 dekabr 2009-cu il tarixli 127 saylı, vətəndaş Hacıyev Şahin Tofiq oğlunun 26 dekabr 2009-cu il tarixli 154 saylı, vətəndaş Şükürov Samir Ramiz oğlu və digərlərinin 26 dekabr 2009-cu il tarixli 163 saylı, vətəndaş Musayev Elvin Əvəz oğlunun 26 dekabr 2009-cu il tarixli 178 saylı, vətəndaş Zeynalov Nadir Musa oğlu və digərlərinin 26 dekabr 2009-cu il tarixli 187 saylı, vətəndaş Çərkəz Vəliyeviin 26 dekabr 2009-cu il tarixli 188 saylı, vətəndaş Məhərrəmov Əzim Əziz oğlu və digərlərinin 26 dekabr 2009-cu il tarixli 192 saylı, vətəndaş Qasımov Namət Məhəmməd oğlunun 26 dekabr 2009-cu il tarixli 193 saylı, vətəndaş Əhmədov Xudakərəm Əhməd oğlu və digərlərinin 26 dekabr 2009-cu il tarixli 196 saylı, vətəndaş Məhərrəm Həsənov və digərlərinin 26 dekabr 2009-cu il tarixli 197 saylı, vətəndaş İsayev Rzaqulu Yunus oğlunun 26 dekabr 2009-cu il tarixli 205 saylı müraciətlərinə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

# Q Ə R A R I

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 55 saylı Xaçmaz seçki dairəsi üzrə Yergüc bələdiyyəsi üzvlüyünə namizəd Ağabalayev Abid Balabəy oğlu, 52 saylı Quba seçki dairəsi üzrə Qələdüz-Dağlı bələdiyyəsinə seçkilərlə əlaqədar Əliyev Hidayət və digərləri, 50 saylı Qobustan – Xızı – Quba seçkii dairəsi üzrə Cəyirli bələdiyyəsinə seçkilərlə əlaqədar İbrəhimov Şirzad və digərləri, Təngəaltı bələdiyyəsinə seçkilərlə əlaqədar İsayev Rzaqulu Yunus oğlu, 108 sayli Ağstafa seçki dairəsi üzrə Tatlı bələdiyyəsi üzvlüyünə namizəd Hacıyev Şahin Tofiq oğlu, 53 saylı Quba – Qusar seçki dairəi üzrə Qaraçay bələdiyyəsi üzvlüyünə namizəd Şükürov Samir Ramiz oğlu və digərləri, 97 saylı Goranboy – Ağdam – Tərtər seçki dairəsi üzrə Qızılhacılı qəsəbə bələdiyyəsinə seçkilərlə əlaqədar Musayev Elvin Əvəz oğlu, 82 saylı Ağcabədi seçki dairəsi üzrə Qiyamaddınlı bələdiyyəsinə seçkilərlə əlaqədar Zeynalov Nadir Musa oğlu və digərləri, 80 saylı İmişli – Beyləqan seçki dairəsi üzrə Boşçallar bələdiyyəsinə seçkilərlə əlaqədar Çərkəz Vəliyev, Qızılkənd bələdiyyəsi üzvlüyünə namizəd Əhmədov Xudakərəm Əhməd oğlu və digərləri, 57 saylı Kürdəmir seçki dairəsi üzrə Qarabucaq qəsəbə bələdiyyəsi üzvlüyünə namizəd Məhərrəmov Əzim Əziz oğlu və digərləri, 92 saylı Zərdab – Ucar seçki dairəsi üzrə bələdiyyə üzvlüyünə namizəd Qasımov Namət Məhəmməd oğlu, 81 saylı Beyləqan seçki dairəsi üzrə Kəbirli kənd bələdiyyəsinə seçkilərlə əlaqədar Həsənov Məhərrəm və digərləri Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək, bəzi seçki məntəqələrində səsvermə günü müxtəlif səpkidə qanun pozuntularına yol verildiyini bildirərək qanunla müəyyən olunmuş qaydada araşdırmaların aparılmasını xahiş etmişlər.

Müraciətlər Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112.1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimatın tələblərinə uyğun olaraq, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvləri tərəfindən araşdırılaraq bu barədə müvafiq rəylər verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Müraciətlərdə göstərilən faktların dairə seçki komissiyaları tərəfindən araşdırılmalı olduğunu nəzərə alaraq, şikayətlər aidiyyəti üzrə araşdırılması və tədbir görülməsi üçün müvafiq seçki dairələrinin dairə seçki komissiyalarına göndərilməlidir.

Belə ki, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 31.1.1 və 31.1.2-ci maddələrinə əsasən seçki dairəsinin ərazisində Azərbaycan Respublikası vətəndaşlarının seçki hüquqlarına riayət olunmasına nəzarəti, Seçki Məcəlləsinin qaydalarının pozulması ilə bağlı şikayətlərə baxıb öz səlahiyyətləri daxilində qərarların qəbul edilməsini dairə seçki komissiyaları həyata keçirir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinə və yuxarıda göstərilən Təlimatın 8.6-cı bəndinə uyğun olaraq şikayət və ya müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112.1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **q ə r a r a a l ı r :**

1. Vətəndaş Ağabalayev Abid Balabəy oğlunun müraciəti 55 saylı Xaçmaz seçki dairəsinin dairə seçki komissiyasına, vətəndaş Əliyev Hidayət və digərlərinin müraciəti 52 saylı Quba seçki dairəsinin dairə seçki komissiyasına, vətəndaşlar İsayev Rzaqulu Yunus oğlu, İbrəhimov Şirzad və digərlərinin müraciətləri 50 saylı Qobustan – Xızı – Quba seçki dairəsinin dairə seçki komissiyasına, vətəndaş Hacıyev Şahin Tofiq oğlunun müraciəti 108 saylı Ağstafa seçki dairəsinin dairə seçki komissiyasına, vətəndaş Şükürov Samir Ramiz oğlu və digərlərinin müraciəti 53 saylı Quba – Qusar seçki dairəsinin dairə seçki komissiyasına, vətəndaş Musayev Elvin Əvəz oğlunun müraciəti 97 saylı Goranboy – Ağdam – Tərtər seçki dairəsinin dairə seçki komissiyasına, vətəndaş Zeynalov Nadir Musa oğlu və digərlərinin müraciəti 82 saylı Ağcabədi seçki dairəsinin dairə seçki komissiyasına, vətəndaşlar Çərkəz Vəliyev və Əhmədov Xudakərəm Əhməd oğlunun

müraciətləri 80 saylı İmişli – Beyləqan seçki dairəsinin dairə seçki komissiyasına, vətəndaş Məhərrəmov Əzim Əziz oğlu və digərlərinin müraciəti 57 saylı Kürdəmir seçki dairəsinin dairə seçki komissiyasına, vətəndaş Qasımov Namət Məhəmməd oğlunun müraciəti 92 saylı Zərdab - Ucar seçki dairəsinin dairə seçki komissiyasına və vətəndaş Həsənov Məhərrəm və digərlərinin müraciəti 81 saylı Beyləqan seçki dairəsinin dairə seçki komissiyasına aidiyyatı üzrə baxılması üçün göndərilsin.

2. Qərarın icrası ilə əlaqədar görülmüş tədbirlər barədə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına məlumat verilsin.

3. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

Sədr — Məzahir Pənahov

Katib — Natiq Məmmədov

Üzvlər — Fuad Cavadov

Ramiz İbrahimov

Validə Kazımova

Qabil Orucov

Tofiq Həsənov

İlham Məmmədov

Azər Tağıyev

Tamam Cəfərova

Rövşən İsmayılov

Oktay Hümbətli